Ədalət .-2025.- 2 may(№16).-S.8.

# *Sözlə Ucalan Bir İmperiyanın Gizli Qəhrəmanı: Şeyx Ədəbalı*

**"Bir dövlətin kökləri yalnız qılıncla yox, hikmətlə də atılır..."**

Əgər bir dövlət min illərlə ayaqda qalıbsa, onun yalnız güclü ordusu və ağıllı sərkərdələri deyil, həm də dərin düşüncəyə sahib mənəvi rəhbərləri olmuşdur. Osmanlı imperiyası bu baxımdan istisna deyil. Onun mənəvi banilərindən biri, bəlkə də birincisi - Şeyx Ədəbalıdır.



Şeyx Ədəbali XIII əsrin sonları ilə XIV əsrin əvvəllərində yaşamış, Anadolu torpaqlarında tanınmış bir din alimi və sufi mürşidi idi. Əslən Karaman bölgəsindən olduğu qeyd olunur.

O, qılıncın yol açdığı torpaqlarda könüllərə yol salan, bir dövlətin ruhunu yoğuran və insanı mərkəzə qoyan düşüncənin sahibi idi. Bu gün belə onun sözləri tarix kitablarından çıxıb ürəklərdə yaşayır.

## *Bir alim, bir sufi, bir ata...*

Şeyx Edebali haqqında düşünərkən onu təkcə dini şəxsiyyət kimi görmək, böyük bir gerçəyi görməmək deməkdir. O, xalqla iç-içə yaşayan, dərd dinləyən, nəsihət edən, gələcəyi görən bir fikir öndəri idi.

Əsl adı Ədəbalı bin İsmail olan bu böyük şəxsiyyət, təhsilini Şam və Hələb kimi elmi mərkəzlərdə almış, Anadoluya qayıdaraq İtburnu (indiki Bilecik) bölgəsində bir zaviyə qurmuşdu. Bu zaviyə sonradan yalnız bir ibadət məkanı deyil, həm də düşüncə mərkəzinə çevrildi.

Ədəbalının adı, ən çox Osman Qazi ilə bağlı olaraq xatırlanır. O hələ gənc yaşlarında Şeyx Ədəbalının dərgahına gəlib-gedər, ondan elm öyrənərdi. O dərgahda yalnız dini dərs deyil, həyat dərsi də alırdı. Bir gecə Osman Qazi orada qaldığı zaman bir yuxu görür - onun qoynundan bir ay doğur, o ay bir ağac olur, budaqları dörd bir yana yayılır...

Bu yuxunu dinləyən Ədəbalı təbəssümlə belə deyir: "Oğul, sən böyük bir dövlətin təməlini atacaqsan. Amma unutma, ağacın kökü torpaqdadır. O torpaq - insanın könlüdür." Bu yalnız bir yuxu yozumu deyil, eyni zamanda bir dövləti insan sevgisi üzərində qurulması gərəkdiyinin vəsiyyəti idi.

Şeyx Ədəbalının Osman Qaziyə etdiyi nəsihətlər tarixdə dərin və mənalı idarəçilik prinsipləri arasında yer almaqdadır. Onun "İnsanı yaşat ki, dövlət yaşasın!" kəlamı sadəcə bir cümlə deyil - dövlət idarəçiliyinin fəlsəfəsidir.

**Fikrət Əkbərli**